# “Bu islahatlar son deyil”

## Vüqar Bayramovun sözlərinə görə, sahibkarlığın inkişafına dövlət dəstəyinin genişləndirilməsi mühüm sosial əhəmiyyət daşıyır

**”Bu sənədlər dövlət başçısının sahibkarlığın inkişafı ilə bağlı siyasi iradəsini bir daha nümayiş etdirdi. Atılan addımlar özəl sektorun inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Azərbaycanda sahibkarlıq sferası liberal münasibətlərə və birbaşa məmur-sahibkar ünsiyyətinin məhdudlaşdırıldığı mərhələyə qədəm qoyur. Bu, artıq özəl sektorun inkişafında yeni mərhələnin açılmasına səbəb olmaqla yanaşı, Azərbaycanın makroiqtisadi göstəricilərinə də birbaşa pozitiv təsir göstərəcək. Sənədlərdə sahibkarlara göstərilən bütün xidmətlərdə şəffaflığın gücləndirilməsi, səmərəliliyin artırılması kimi məsələlərin öz əksini tapması da məhz ondan xəbər verir ki, həm dövlət qurumları, həm da sahibkarların özləri şəffaf şəkildə fəaliyyət göstərəcəklər”.**

**Bu sözləri ”Kaspi”yə müsahibəsində iqtisadçı ekspert Vüqar Bayramov ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanun və ”Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi” haqqında fərmana münasibət bildirərkən söylədi. Söhbət zamanı o, bu addımların ölkədə sahibkarlığın stimullaşdırılmasına, həmçinin vətəndaşların sosial durumu və iqtisadi imkanlarına müsbət təsir göstərəcəyini vurğuladı.**



**- Sizcə, sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması, lisenziyaların verilməsinin ”ASAN Xidmət”ə tapşırılması zərurəti nədən yarandı?**

- Öncə onu deyim ki, görülən işləri çox yüksək qiymətləndirirəm. Onlar birmənalı şəkildə ölkədə sahibkarlığın stimullaşdırılmasına, həmçinin vətəndaşların sosial durumuna, iqtisadi imkanlarına müsbət təsir göstərəcək. Bu, həm də o deməkdir ki, ölkədə güclü siyasi iradə var. Verilən tapşırıqlar ölkə prezidentinin sahibkarların yanında olduğunu ortaya qoyur. Deməli, o, sahibkarlara mane olan məqamlarla bağlı məlumat əldə edib. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına dair iclasındakı çıxışından çox qısa zaman sonra sahibkarlığın inkişafı ilə bağlı real və strateji addımlar atılır. Belə ki, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) lisenziya verilməsi İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edildi və vergi yoxlamaları istisna edilməklə bütün növ yoxlamaların 2 il müddətində dayandırılması ilə bağlı qanun layihəsi parlamentə təqdim olundu. Beləliklə, dövlət başçısının bir neçə gün önceki tezisləri ilə anonsu verilən sahibkarlığın inkişafındakı yeni mərhələ reallaşdı. Faktiki olaraq, iqtisadiyyatın tam liberallaşması, qeyri-neft sektorunun dayanıqlığının təmin edilməsi, dövlət büdcəsində vergili daxilolmalarının artırılması və nəhayət, iqtisadi diversifikasiya ilə bağlı hədəflərə nail olunması istiqamətində ciddi işlər görülür. Bu islahatlar Azərbaycan iqtisadiyyatında şaxələnməni genişləndirməklə yanaşı, 2020-ci ilədək olan hədəflərin reallaşmasında mühüm mərhələ olacaq. Dövlət qurumlarının müdaxiləsinin azalması sahibkarların da şəffaf şəkildə öz fəaliyyətlərini qurmalarına səbəb olmalıdır. Lisenziyaların verilməsinin ”ASAN Xidmət”ə həvalə edilməsi sahibkarlara heç bir süründürməçilik və əlavə xərclər olmadan bütün növ lisenziyaları almaq imkanı verəcək. Monitorinqlər göstərirdi ki, əksər hallarda sahibkarlar tək lisenziyaya görə ödəniş etmir, bunun üçün əlavə pul verməli olurdular. Hansı razılaşar ki, ”ASAN Xidmət”in səlahiyyətinə daxil edilən bütün xidmətlərdə korrupsiya, rüşvət, süründürməçilik kimi neqativ hallar qeydə alınmayıb. Bu o deməkdir ki, artıq sahibkar lisenziya almaq üçün nə növbəyə durmalı, nə də ”vasitəçi” axtarmalı olmayacaq, o, sadəcə dövlət rüsumunu ödəməklə qısa zamanda lisenziyaya sahib olacaq.

**- Bütün bunlar qeyri-neft sektorunun inkişafına təkan verə biləcəkmi?**

- Təbii ki. Son islahatlar qeyri-neft sektorunun ixrac qabiliyyətinin gücləndirilməsinə birbaşa təsir edəcək. Qeyri-neft sektorunun payı Ümumi Daxili Məhsulda 70 faizə, büdcə gəlirlərində isə 40 faizə çatmaqdadır. Bununla yanaşı, qeyri-neft ixracatının ümumi ixracatda payının artırılması da olduqca vacibdir. Doğrudur, 2015-ci ilin ötən müddətində qeyri-neft ixracatı 12 faizə yaxın artıb və ümumi ixracatda neftsiz sektorun payı artıq ikirəqəmlidir. Təbii ki, neftin dünya bazar qiymətinin aşağı düşməsi ürəkaçan deyil. Bunu isə kompensasiya edəcək sektor məhz qeyri-neft sferası və sahibkarlıqdır. Praktik olaraq, yersiz müdaxilə olmadan məhsul istehsal edən sahibkarlar onların bir qismini maneəsiz ixrac etməklə özlərinin maliyyə likvidliyini gücləndirmiş olacaqlar. Sahibkarlığın inkişafında yeni mərhələnin başlaması həm də dövlət büdcəsinin gəlirlərinin şaxələnməsinə səbəb olacaq. Gələn il büdcəyə daxil olan hər 2 manatın təxminən 1 manatı məhz qeyri-neft sektorunun payına düşəcək. Daha da inkişaf etmiş sahibkarlıq büdcəyə daha çox ödəniş deməkdir. Dövlət büdcəsinə vergi daxilolmalarında artım müşahidə ediləcək. Sahibkarlığın inkişafına dövlət dəstəyinin genişləndirilməsi eyni zamanda, sosial əhəmiyyət daşıyır. İnkişaf etmiş özəl sektor daha çox yeni iş yeri deməkdir. Bu ilin 9 ayında 30 min iş yeri bağlansa da, 67 min yeni iş yeri yaradılıb. Təbii ki, dayanıqlı inkişafa malik olan ölkəmizdə iş yerlərinin bağlanması heç bir halda arzuolunan deyil. Aparılan tədqiqatlar göstərir ki, iş yerlərinin bağlanmasında sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin təsiri az deyildi. Belə müdaxilələr sahibkar üçün əlavə xərc və iş fəaliyyətində fasilələr ilə nəticələnirdi. Bu baxımdan son islahatlar eyni zamanda məşğulluğun tam təmini baxımından böyük təsirlərə malik olacaq. Deməli, yeni iş yerlərinin yaradılması ilə biznes mühiti daha da canlanacaq. Aydındır ki, idxal ölkədən valyuta aparır. İdxalın həcminin yerli istehsalın genişləndirilməsi hesabına azaldılması isə valyutanın ölkədə qalmasına səbəb olur. Bu baxımdan sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi eyni zamanda maliyyə və məzənnə sabitliyi baxımından olduqca əhəmiyyətlidir. Ölkə prezidentinin də qeyd etdiyi kimi, 2016-cı il iqtisadi baxımdan asan il olmayacaq. Yalnız iqtisadi deyil, həmçinin siyasi faktorlar ilə müəyyənləşdirilən enerji məhsullarının qiyməti ilə bağlı proqnozlar hələlik nikbin deyil. Amma qeyri-neft sektorunun inkişafı ilə təhlükələrdən qaçmaq olur. Yəni Azərbaycan qlobal və regional çətinliklərin, o cümlədən neftin dünya bazarında qiymətinin aşağı səviyyədə qalmasının təsirlərindən sığortalana biləcək. Azərbaycan regionda sahibkarlığın inkişafına ən çox birbaşa maliyyə yardımı göstərən ölkədir. Artıq maliyyə yardımı ilə yanaşı, sahibkarları narahat edən bütün bürokratik problemlər aradan qaldırıldısa, deməli, hər şey yaxşıya doğru gedir.

**Ölkə prezidentinin də qeyd etdiyi kimi, 2016-cı il iqtisadi baxımdan asan il olmayacaq. Yalnız iqtisadi deyil, həmçinin siyasi faktorlar ilə müəyyənləşdirilən enerji məhsullarının qiyməti ilə bağlı proqnozlar hələlik nikbin deyil. Amma qeyri-neft sektorunun inkişafı ilə təhlükələrdən qaçmaq olur. Yəni Azərbaycan qlobal və regional çətinliklərin, o cümlədən neftin dünya bazarında qiymətinin aşağı səviyyədə qalmasının təsirlərindən sığortalana biləcək. Azərbaycan regionda sahibkarlığın inkişafına ən çox birbaşa maliyyə yardımı göstərən ölkədir. Artıq maliyyə yardımı ilə yanaşı, sahibkarları narahat edən bütün bürokratik problemlər aradan qaldırıldısa, deməli, hər şey yaxşıya doğru gedir.**

**- Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi sadə vətəndaşların həyatında özünü necə göstərəcək?**

- Prezidentin bu istiqamətdə verdiyi fərman ticarətin liberallaşması, eyni zamanda, Azərbaycan vətəndaşlarının öz istifadələri üçün xaricdən gətirdikləri və dəyəri 10 min dollardan çox olmayan məhsulların gömrük rüsumundan azad olunması deməkdir. Məqsəd vətəndaşların gömrük rüsumu ödəmədən öz ehtiyacları üçün lazım olan məhsulları Azərbaycana idxal etməsini təmin etməkdir. Çünki vətəndaşların öz ehtiyacları üçün gətirdikləri məhsulların, malların dəyəri əksər hallarda 10 min dollardan çox olmur. Bu isə o deməkdir ki, əgər vətəndaş xarici ölkədən hər hansı məhsul alırsa, həmin məhsulu satmaq və ya istehsal etmək məqsədilə deyil, öz şəxsi istifadəsi məqsədilə ölkəyə gətirirsə, bu zaman hər hansı vergi və ya rüsum ödəməyəcək. Bu, vətəndaşlara istədikləri halda lazımi məhsulları digər ölkələrdən alıb gətirmək imkanı verəcək. Bundan əlavə, əgər vətəndaş xaricdə səfərdə olan zaman bazarlıq edibsə və onun dəyəri 10 min dollar və ya ona ekvivalent pulla ondan çox deyilsə, o zaman gömrük rüsumu ödəməyəcək. Bu addım vətəndaşın xərcini azaldır və o, az xərclə və daha ucuz qiymətə tələbatı olduğu məhsulu xaricdən idxal edə bilir. Vətəndaş bundan birmənalı şəkildə qazanır. Çünki daha ucuz qiymətə məhsula sahib olmaq imkanı əldə edir. Azərbaycan vətəndaşları özlərinə lazım olan bəzi məhsulları daha çox Türkiyədən və ya digər qonşu ölkələrdən alıb gətirirdilər və buna görə rüsum və vergi ödəmək məcburiyyətində qalırdılar. Çünki ixracata vergi və rüsum olmasa da, idxala vergi və rüsum müəyyənləşdirilmişdi. Amma artıq əgər vətəndaş Türkiyədən öz istifadəsi üçün məhsul alırsa və onu ölkəyə gətirirsə, rüsum ödəməyəcək. Dövlət başçısının belə bir fərman verməsində məqsəd əhalinin, vətəndaşların maraqlarını qorumaqdır. Məsələn, vətəndaşın mebelə ehtiyacı var və onu Türkiyədən alıb gətirir. Əvvəllər vətəndaş onun dəyərindən asılı olaraq orta hesabla 15 faiz vergi rüsumu ödəyirdi. İndi isə əgər satmaq məqsədilə deyil, şəxsi istifadə üçün xaricdən məhsul gətiriləcəksə, bu zaman artıq həmin vergi ödənilməyəcək.

**- Bəziləri iddia edir ki, bunlar gecikmiş qərarlardır. Siz necə düşünürsünüz?**

- Bu addımların gecikmiş olduğunu düşünmürəm. Nəzərə alaq ki, ölkədə hər zaman sahibkarlığa dövlətin dəstəyi müşahidə olunur. Əvvəla, sahibkarlıqla bağlı monitorinqlərin aparılması, məlumatların yığılması və prezidentə verilməsinə ehtiyac vardı. Söhbət sahibkarlığın inkişafından, formalaşmasından getmir. Ölkədə oturuşmuş sahibkarlıq var. Azərbaycanda sahibkarlığın 80 faizindən çoxu özəl sektorun payına düşür. Bu isə ölkəmizdə sözügedən sahənin dominant mövqeyə sahib olduğundan xəbər verir. Amma yenə də verilən son qərarlar imkan verəcək ki, ölkədə sahibkarlıq yeni mərhələyə qədəm qoyaraq daha da inkişaf etsin. Sahibkarlığın üçün hər zaman yeni imkanların, fürsətlərin tanınmasına ehtiyac var və bunun nə zaman edilməsindən asılı olmayaraq, gecikmiş hesab oluna bilməz. Yeni fərqli yanaşma, yeni qərarlar həm ölkədaxili, həm ölkəxarici faktorlar nəzərə alınmaqla qəbul edilir. Sahibkarlığa göstərilən dəstək heç bir zaman gecikmiş addım sayılmamalıdır. Görünən odur ki, bu islahatlar son deyil və davam etdiriləcək. Gələcəkdə mərhələli şəkildə bütün xidmətlərin elektronlaşdırılması həyata keçiriləcək.

**- Bəs bu addımların real nəticəsini nə zaman müşahidə etməyə başlayacağıq?**

- Qərar icra olunmağa başladığı vaxtdan etibarən müsbət nəticələrin şahidi olacağıq. Hər şey vətəndaşların rahatlığına hesablanıb. Son zamanlar gömrükdə malların keçirilməsi ilə bağlı müşahidə olunan narazılıqlar bitəcək. Xaricdən gətiriləcək məhsullar ucuz qiymətə əldə olunduğuna görə ümumilikdə istehlak bazarında qiymətlər dəyişə bilər. Çünki artıq vətəndaşın xaricdən nisbətən ucuz qiymətə məhsul almaq seçimi olacaq. Bu zaman idxalla məşğul olan sahibkarlar da satdıqları məhsulların qiymətlərini aşağı salmaq məcburiyyətində qalacaqlar. Bu isə ümumən ölkə daxilində qiymətlərin tənzimlənməsinə və aşağı düşməsinə səbəb olacaq. Ona görə də bütün hallarda udan tərəfin vətəndaş olduğunu deyirəm. Hətta idxalla məşğul olmayanlar da rəqabət nəticəsində daha aşağı qiymətə məhsul əldə edə biləcəklər. Ölkədən bəyannamə olmadan 10 min dollar nağd pul çıxarılmasına icazə verilir, ondan artıq vəsait isə bəyan olunmalıdır. Ölkəyə nağd pul gətirilməsinə isə hər hansı limit və ya qadağa yoxdur. Bu fərmanda isə nağd pullar yox, məhsulların dəyəri nəzərdə tutulur.

**Şəfa Tapdıq**